# "Boz zona" aydınlığa çıxdı

## Artıq Azərbaycan ərazilərində nə separatçılar var, nə də onların qondarma qurumu

Sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal antiterror tədbirləri cəmi 23 saat çəkdi. Bununla da 200 illik saxta erməni iddialarına birdəfəlik son qoyuldu. Bir sutkadan da az müddətdə Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaratmaq kimi sərsəm ideyanı həmişəlik tarixin zibilliyinə atdı.









### Layiqli cəzalarını aldılar

Sovet dövlətinin mövcud olduğu ötən əsrin 80-ci illərinin sonlarından etibarən baş qaldıran erməni separatizminin nəticəsi olaraq Qarabağdakı dövlət qurumları Azərbaycan hakimiyyətinə tabesizlik göstərməyə başlamışdılar. 1991-ci ildə isə Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaratmaq planına uyğun olaraq, separatçılar Qarabağda qondarma respublikanın yaradıldığını elan etmişdilər. Demək olar ki, 80-ci illərin sonlarından Qarabağ "boz zona"ya çevrildi. Qanunların işləmədiyi, terrorçuların, hərbi canilərin idarə etdiyi bu ərazilərdən separatçılar işğal dövründə bütün çirkin məqsədlər üçün istifadə ediblər.

Nəhayət, Azərbaycan öz torpaqlarını işğalçılardan təmizlədi. Vətən müharibəsində kapitulyasiya edən Ermənistanın üzərinə götürdüyü öhdəliklərdən biri məğlub silahlı qüvvələrinin qalıqlarını Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Qarabağdan tamamilə çıxarması idi. Lakin bu illərdə Ermənistan nəinki öhdəliyini yerinə yetirmədi, üstəlik, xəbərdarlıqlardan da nəticə çıxarmadı. Hətta bir az da qabağa gedərək Azərbaycanın Qarabağda həyata keçirdiyi bərpa və quruculuq işlərinə, mülki vətəndaşlarımıza, hərbçilərimizə qarşı təxribatlar törətdilər.

İndi artıq bunlar keçmişdə qalıb. Vaxtilə torpaqlarımızda "Artsax" adlı qondarma respublika qurduqlarını iddia edənlər, ölkəmizi hədələyənlər, hərbçilərimizə, mülki vətəndaşlarımıza qarşı təxribatlar törədənlər sentyabrın 19-20-də Azərbaycan Ordusunun "dəmir yumruğ"u ilə layiqli cəzalarını aldılar, bir qismi məhv edildi, bir qisminin isə ağ bayraq qaldırmaqdan başqa yolu qalmadı.

### Güclü siyasi iradəmizin göstəricisi

Artıq Azərbaycan ərazisində erməni separatizmi yoxdur. Prezident İlham Əliyevin dediyi kimi: "Sentyabrın 20-də biz öz suverenliyimizi bərpa etdik. Yəni artıq "boz zona"lar yoxdur, qeyri-qanuni strukturlar yoxdur və torpaqlarımızda separatçılığa son qoyulubdur. Bu, bizim güclü siyasi iradəmizin göstəricisidir".

Azərbaycan torpaqlarında "erməni dövləti" söhbəti tamamilə bağlandı. İndi həmin "boz zona"da Azərbaycanın qanunları hakimdir. Azərbaycanın bu ərazilərində dövlət qurumları fəaliyyət göstərirlər. Ermənistan və dünya erməniliyinin Qarabağda ermənilərin guya etnik təmizləməyə məruz qalmaları ilə bağlı iddiaları isə ifşa olundu. Elə bu günlərdə Qarabağa səfər etmiş BMT missiyası erməni yalanlarına böyük zərbə vurdu.

Beləliklə, Azərbaycan dövləti bütün Qarabağda öz suverenliyini təmin edib. Bu ərazilər də bərpa olunacaq, yenidən qurulacaq, sakinlərinin rifahı təmin ediləcək. Eyni zamanda Azərbaycan dövləti Qarabağda vaxtilə fəaliyyət göstərmiş separatçıları, müharibə canilərini, Xocalı cəlladlarını da məsuliyyətə cəlb edəcək. Artıq onların bir neçəsi ələ keçirilib. Yerdə qalanları da dövlətimizin ədalət mühakiməsindən canlarını qurtara bilməyəcəklər.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 4 oktyabr.- S.7.